# Həftəlik *Bülleten*



## 119
## 28 Noyabr 2025

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Prezident “AZWOOL” mineral daş yunu zavodunun açılışında iştirak edib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunda “Matanat-A” şirkətinin “AZWOOL” mineral daş yunu zavodunun açılışında iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov və “Matanat-A” şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov dövlət başçısına zavodun fəaliyyəti barədə məlumat veriblər. Prezident İlham Əliyevə əvvəlcə əsası 2000-ci ildə qoyulan “Matanat-A” şirkəti barədə məlumat verilib. İnşaat materiallarının istehsalı sektorunda 25 ildir fəaliyyət göstərən şirkətin tərkibinə “Matanat A” Quru İnşaat Qarışıqları, AĞDAĞ gipskarton və gips əsaslı məhsulların istehsalı, AZERLİME Əhəng, Avadanlıq və dəzgahların istehsalı və ELBERG maşınqayırma zavodları daxildir. Şirkətin müəssisələrində ümumilikdə 1000-ə yaxın iş yeri yaradılıb. Ərazisi 10 hektar olan “AZWOOL” mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb. Zavodun illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur. Müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır.

Tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.





**Azərbaycanda 10 ayda tikinti sektoruna 3,6 milyard manatdan çox yatırım edilib.**

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda əsas kapitala yönəldilmiş investisiyalardan tikinti sektoruna 3,644 milyard manat sərf olunub. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edib. Bildirilib ki, bu, 2024-cü ilin eyni dövründəki göstərici ilə müqayisədə 1,1% azdır. Sözügedən sahə üzrə əsas kapitala yönəldilmiş investisiyaların yekunda xüsusi çəkisi 24,6%-ə bərabər olub. Hesabat dövründə tikinti sektoruna yatırılmış investisiyanın 2,467 milyard manatı mənzil tikintisinə yönəldilib ki, bu da 2024-cü ilin ilk 10 ayındakı göstəriciyə nəzərən 26,3% artım deməkdir. Dövr ərzində mənzil tikintisi üzrə əsas kapitala yönəldilmiş investisiyaların yekunda xüsusi çəkisi 16,6%-ə bərabər olub. Qeyd edək ki, 2025-ci ilin yanvar-oktyabr aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 14,830 milyard manat və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çox investisiya yönəldilib. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8,8 faiz azalıb, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 6,0 faiz artıb.



**Sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsinə görə rüsum tutulacaq.**

Nazirlər Kabineti 13 may 2015-ci il tarixli qərarı ilə təsdiqlənmiş "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə"də dəyişiklik edib. Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsinə görə "Dövlət rüsumu haqqında" qanunla müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulacaq. İdarəedici təşkilat sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəmək vəzifəsi barədə 2 iş günü müddətində ərizəçiyə şifahi və yaxud yazılı formada məlumat verir. Ərizəçi məlumat alındığı tarixdən 5 iş günü müddətində sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsinin verilməsi üçün dövlət rüsumunu ödəyir və ödənişi təsdiq edən sənədi idarəedici təşkilata təqdim edir. Ərizəçi dövlət rüsumu ödənilməsi faktını təsdiqləyən sənədi təqdim etdikdən sonra sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsi 2 iş günündən gec olmayaraq ərizəçiyə təqdim edilir və yaxud sifarişli poçtla göndərilir. Dövlət rüsumunun ödənilməsi faktını təsdiq edən sənəd bu Əsasnamənin 8.6-1-ci bəndində nəzərdə tutulan müddətdə təqdim edilmədikdə idarəedici təşkilat sənaye məhəlləsinin rezidentinin qeydiyyat şəhadətnaməsini ləğv elir və bu barədə məlumat 2 iş günü müddətində ərizəçiyə göndərir.



**Şuşada 7 yeni yaşayış binası inşa ediləcək – 36,7 milyon manatlıq layihə.**

Azərbaycanın azad edilmiş digər ərazilərində olduğu kimi Şuşa şəhərində də bərpa, yenidənqurma və quruculuq işləri davam etdirilir.

Dövlət satınalmalarının vahid internet portalına istinadən məlumatına görə, bu işlərin davamı kimi Şuşa şəhərində D-3 massivində yerləşən 2-ci mərhələ üzrə tikintisi nəzərdə tutulan yeni 7 yaşayış binasının tikinti işləri aparılacaq. Məlumata əsasən, eyni zamanda ərazinin abadlaşdırılması işləri də həyata keçiriləcək. Belə ki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi artıq bununla bağlı müvafiq işlərə start verib. Qurum hazırda sözügedən işləri icra edəcək şirkəti müəyyənləşdirməkdədir.

Eyni zamanda qurum görüləcək işlərin 36,7 milyon manata başa gələcəyini proqnozlaşdırıb.



**Azərbaycanda mis konsentratı istehsalı 30 dəfəyə yaxın artıb.**

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda 3 330 ton mis konsentratı istehsal edilib.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edilib.

Bildirilib ki, mis konsentratı istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 3,2 min ton və ya 29,7 dəfə artıb. Belə ki, ötən ilin yanvar-oktyabr aylarında Azərbaycanda 112 ton mis konsentratı istehsal edilmişdi.

Cari ilin noyabr ayının 1-nə ölkədə hazır mis konsentratı ehtiyatının miqdarı 251,6 ton olub.

Ümumilikdə, hesabat dövründə Azərbaycanda mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 32 milyard manat olmaqla, əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 faiz azalıb.



**Azərbaycanda bentonit istehsalı 37%-dən çox artıb.**

Bu ilin yanvar-oktyabr ayları ərzində Azərbaycanda 264,1 min ton bentonit istehsal olunub.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edilib.

Bildirilib ki, bu göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə 71,6 min ton və ya 37,2% çoxdur. Cari ilin noyabrın 1-i vəziyyətinə hazır məhsul ehtiyatı 243,1 min ton təşkil edib.

Azərbaycanda 2025-ci ilin yanvar-oktyabr ayları ərzində mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 32 milyard manat olmaqla, əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 faiz azalıb.



**Azərbaycanda metal filizlərin hasilatı 39%-ə yaxın artıb.**

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda 556,9 milyon manatlıq metal filizləri hasil edilib.

Bu barədə Dövlət Statistika Komitəsindən məlumat əldə edilib.

Məlumata görə, metal filizlərin hasilatı ötən ilin eyni dövrü ilə müqayisədə 38,7% artıb. Bundan əlavə, dövr ərzində sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 23 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 32,3 milyard kub metr təşkil edib. Əmtəəlik neft hasilatı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,6 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 1,7 faiz artıb.

Bu ilin ilk 10 ayında Azərbaycanda mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 32 milyard manat olmaqla, əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,1 faiz azalıb.



**Qara metal idxalı azalıb, amma qiyməti bahalaşıb – RƏQƏMLƏR.**

Bu ilin ilk 10 ayında Azərbaycana 923,8 milyon dollar dəyərində 768,2 min ton qara metallar və onlardan hazırlanan məmulatlar idxal edilib.

Dövlət Gömük Komitəsinə istinadən xəbər verilir ki, qara metal idxalı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 54,4 milyon dollar və ya 5,6%, miqdar ifadəsilə isə 85,8 min ton, başqa sözlə 10,1% azdır.

Qeyd edək ki, 2024-cü ilin yanvar-oktyabr ayları ərzində ölkəyə 978,2 milyon dollar dəyərində 854,1 min ton qara metal idxal olunmuşdu.

Bu ilin ilk 10 ayının nəticələrinə görə Azərbaycana idxal olunan qara metalın 1 kiloqramının orta idxal qiyməti 2 manat 4 qəpik təşkil edib. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 1 manat 95 qəpik idi. Bu da illik müqayisədə 9 qəpik və ya 4,6% bahalaşma deməkdir.

Bu il 10 ayında ümumi idxalın 4,80%-i qara metalların payına düşüb. Ötən ilin eyni dövründə isə bu göstərici 5,88% təşkil etmişdi.



**Növbəti torpaq hərracları elan edildi.**

Dekabrın 24-də Azərbaycanın müxtəlif regionlarında 31 torpaq hərracı keçiriləcək.

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (ƏMDX) istinadən xəbər verilir.

Hərraclar Dövlət Xidmətinin Sumqayıt, Şirvan, Mingəçevir, Lənkəran, Ucar, Bərdə, Qazax, Xaçmaz,Beyləqan, Şəki və Qəbələ ərazi şöbələrində təşkil olunacaq. Satışa bələdiyyə orqanlarına məxsus 31 torpaq sahəsi çıxarılacaq.

Hərraclar barədə ətraflı məlumatı buradan əldə etmək mümkündür. https://emlak.gov.az/az/news/view/9857-24-dekabr-2025-ci-il-tarixind%C9%99-saat-15:00-da-torpaq-m%C3%BCsabiq%C9%99l%C9%99rinin-v%C9%99-h%C9%99rraclar%C4%B1n%C4%B1n-ke%C3%A7irilm%C9%99si-haqq%C4%B1nda-m%C9%99lumat



**Tikinti materiallarının bahalaşması mənzil bazarında qiymət artımına səbəb olur – AÇIQLAMA.**

Dünya ölkələrində, eyni zamanda Azərbaycanda tikinti materiallarının bahalaşması artıq bir neçə ildir davam edən ümumi iqtisadi tendensiyadır. Bu proses tikinti sektorunun maya dəyərinə birbaşa təsir etdiyindən, mənzil bazarında da qiymət dinamikasında özünü ciddi şəkildə büruzə verir. Tikinti üzrə ekspert Anar Qurbanov bildirib ki, bahalaşmanın təsiri əsasən üç istiqamətdə özünü göstərir. “İlk növbədə yeni tikilən binalarda qiymətlərin artmasında özünü göstərir. Belə ki, mənzil tikmək üçün istifadə olunan sement, polad, blok, boya və digər materialların qiyməti qalxdıqda, tikinti şirkətləri xərclərini ödəmək üçün mənzillərin satış qiymətini artırır. İkinci əsas faktor ondan ibarətdir ki, yeni tikililərdə qiymətlərin bahalaşması alıcıları köhnə mənzillərə yönəldir. Artan tələb köhnə mənzil bazarında da qiymətlərin yüksəlməsinə səbəb olur. Ən nəhayət, təmir xərclərinin bahalaşması yekunda satılan mənzillərin qiymətini bahalaşdırır”, - deyə Anar Qurbanov vurğulayıb. Ekspert, həmçinin əlavə edib ki, Bakı şəhərində tikinti qiymətlərinin bahalaşmasına təkcə materialların qiymətinin artması yox, həm də bir çox makroiqtisadi amillər də təsir edir.



**Hörmətli Assosiasiya üzvləri,**

Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı Ticarət və Sənaye Palatası 11 - 12 dekabr 2025-ci ildə Suzdal şəhərində keçiriləcək "Vladimir İnvestisiya Konqresi"ndə tikinti şirkətlərini iştirak etməyə dəvət edir. Forumda Azərbaycan, Qazaxıstan, Vyetnam, Hindistan və Vladimir vilayətinin biznes nümayəndələri iştirak edəcək. Tədbir çərçivəsində plenar iclaslar, dəyirmi masalar, B2B görüşlər və sərgi təşkil olunacaq. Regional ixrac, investisiya imkanları geniş müzakirə ediləcək. İştirakçılar otel və ölkədaxili transfer ilə təmin olunur.

Əlaqə üçün: 050 250 95 17

ATMİA

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: ZAK WORLD OF FAÇADES - SAUDI ARABIA - RIYADH 2025**

**Tarixlər: 09 Dekabr 2025-ci il**

**Məkan: Ər-Riyad (Səudiyyə Ərəbistanı)**

Zak World of Façades, fasad dizaynı və mühəndisliyi üzrə beynəlxalq konfrans seriyasıdır.

**Sərginin adı: JAPAN BUILD - TOKYO 2025**

**Tarixlər: 10-12 dekabr 2025-ci il,**

**Məkan: Tokio Beynəlxalq Sərgi Mərkəzi (Tokyo Big Sight), Tokio (Yaponiya)**

Asiyanın Tikinti və Mənzil Sənayesi üzrə Aparıcı Sərgisi. JAPAN BUILD, ildə iki dəfə Tokio və Osakada keçirilən, tikinti və mənzil sənayesini əhatə edən Asiyanın aparıcı sərgisidir.

**Sərginin adı: POLYMERS AZERBAIJAN AND CIS 2025**

**Tarixlər: 10-12 dekabr, 2025-ci il,**

**Məkan: Fairmont Baku Alov Qüllələri, Bakı (Azərbaycan)**

Zavodların tikintisi və modernləşdirilməsinə həsr olunmuş Beynəlxalq Konqres və Sərgi. Tədbir əsas polimerlər və sintetik kauçuklar istehsalçılarını, polimer sənayesində investisiya layihələrinin təşəbbüskarlarını bir araya gətirir...

**Sərginin adı: LIBYA CONSTRUCTION EXPO 2025**

**Tarixlər: 13-16 dekabr 2025-ci il**

**Məkan: Misrata (Liviya)**

Liviyanin Beynəlxalq Tikinti Sərgisi. Tədbir tərəfdaşlıqları asanlaşdırmaq, bilikləri və sənayenin ən yaxşı təcrübələrini inkişaf etdirmək, eləcə də yerli və beynəlxalq biznesləri bazara çıxarmaq üçün bir platforma rolunu oynayır.

## AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ TENDER KEÇİRİR.

Azərbaycan Respublikası Gənclər Və İdman Nazirliyi açıq tender elan edib.
Elanda Qaradağ rayonu, Qobustan qəsəbəsində idman zalının tikintisi işlərinin davamının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Emin İbrahimli, Satınalmalar sektorunun müdiri
Email: Emin.Ibrahimli@MYS.GOV.AZ
Əlaqə telefonu: +994 00 000 00 00 (187)



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa,tikinti Və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Elan "Füzuli şəhərinin 3 nömrəli yaşayış məhəlləsində söküntü işləri"nin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Orxan İbadov, Satınalma şöbəsinin Böyük məsləhətçisi
Email: o.ibadov@afxbti.gov.az
Əlaqə telefonu: +994 55 386 15 15



**"MİDA" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN ETDİ.**

"Mida" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edib.
Elanda Abşeron rayonu, Saray qəsəbəsində 4,5 ha torpaq sahəsində 2 mərtəbəli 80 yerlik uşaq bağçasının tikintisi nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Vüqar Təyyar oğlu Əliyev, Sektor müdiri
Email:vugar.aliyev@mida.gov.az
Əlaqə telefonu:+994 12 594 54 01 (239)



**"DAŞINMAZ ƏMLAKIN DÖVLƏT KADASTRI VƏ REYESTRİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ.**

"Daşınmaz Əmlakın Dövlət Kadastrı Və Reyestri" Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Elan 1 saylı Bakı Ərazi İdarəsinin Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov 40 ünvanında yerləşən inzibati binasında təmir və yenidənqurma işlərinin alınması əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Şahin Ömərov, Şöbə müdiri; Gülarə Həsənova, Baş mütəxəssis
Email: shomerov@emlak.gov.az; ghesenova@emlak.gov.az
Əlaqə telefonu: +994 12 510 84 30; +994 12 510 84 30



**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİNİN "AZƏRTERMİNALKOMPLEKS" BİRLİYİ TENDER ELAN ETDİ.**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin "Azərterminalkompleks" Birliyi açıq tender elan edib.
Elan saxlanc anbarının tikinti işinin satınalınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Ələmdar Niftəliyev, inspektor
Email:alamdar.niftaliyev.9651@customs.gov.az
Əlaqə telefonu:+994 51 295 61 24



